**“SUMQAYIT TEXNOLOGİYALAR PARKI”**

**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

***yanğın təhlükəsizliyi sisteminin və təhlükəsizlik sisteminin layihələndirilməsi məqsədi ilə keçiriləcək tender üzrə ixtisas uyğunluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etməyə dəvət edir***

| | |
|---|---|
| **I.** | **Tenderin** ilkin mərhələsində ixtisas göstəricilərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün ixtisas uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru tətbiq olunur.<br>- ixtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək üçün yazılı müraciət (nümunə əlavə olunur) tələb olunur;<br>- ixtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) Bakı vaxtı ilə saat 09:00-dan 18:00-a qədər elanda göstərilmiş əlaqələndirici şəxsin elektron poçt ünvanına təqdim olunmalıdır. |
| **II.** | **İxtisas uyğuluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etmək istəyən təchizatçılar aşağıda qeyd olunan sənədləri təqdim etməlidirlər:**<br>- *təchizatçının hüquqi statusunu təsdiq edən sənədlər (Nizamnamənin, Dövlət reyestrindən çıxarışın və şəhadətnamənin surəti);*<br>- *rekvizitlər (bank hesabı, hüquqi (qeydiyyat ünvanı) və faktiki (yaşayış) ünvanı);*<br>- *təchizatçının son bir il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyət göstərdiyi dövürdə) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*<br>- *təchizatçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirən sənəd);*<br>- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*<br>- *tender predmeti üzrə nəzərdə tutulan işlərin yerinə yetirilməsini və xidmətlərin göstərilməsini həyata keçirməyə icazəsi barədə lisenziyaları;*<br>- *son 5 (beş) il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) təchizatçının yerinə yetirdiyi anoloji müqavilələr haqqında məlumat;*<br>- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*<br>- *satınalma müqaviləsinin icrasını təmin etmək məqsədi ilə müvafiq sahədə peşəkarlığı, təcrübəsi və işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı barədə məlumat (nümunələr əsas şərtlər toplusunda təqdim edilir);*<br>- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*<br>*və s. əsas şərtlər toplusunda tələb olunan digər sənədlər*<br>Yuxarıda göstərilən sənədlər “16” yanvar 2024 -cü il saat 18:00-a qədər elanda göstərilmiş ünvana təqdim edilməlidir. |
| **III.** | **İxtisas uyğuluğunun müəyyənləşdirilməsinə təqdim olunan sənədlərə dair tələblər aşağıdakılardır:**<br>Sənədlər möhürlənmiş imzalanmış zərfdə, “16” yanvar 2024 -cü il saat 18:00 qədər elanda göstərilmiş ünvana təqdim edilməlidir.<br>Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. |

| | |
|---|---|
| **IV.** | **Tender 2 (iki) LOT üzrə keçiriləcək:**<br>LOT 1: **“**STP” MMC və törəmə müəssisələrinin yanğın təhlükəsizliyi sisteminin layihələndirilməsi;<br>LOT 2: **“**STP” MMC və törəmə müəssisələrinin mühəndis təhlükəsizlik sisteminin layihələndirilməsi. |
| **V.** | **Ünvan:**<br>Sumqayıt, H.Z.Tağıyev qəsəbəsi, “Sumqayıt Texnologiyalar Parkı” MMC (inzibati bina, Nəzarət Buraxılış Məntəqəsi-1, Tender qutusu) |
| **VI.** | **Əlaqələndirici şəxs:**<br>Nigar Zeynalova<br>Telefon nömrəsi: (+99410) 228-49-05<br>e-mail: n.zeynalova@stp.az |
| **VII.** | **Zərflərin açılışı:**<br>Tarixi: “17” yanvar 2024 -cü il<br>Vaxtı: Bakı vaxtı ilə saat 10:00<br>Yeri: Sumqayıt, H.Z.Tağıyev qəsəbəsi, “Sumqayıt Texnologiyalar Parkı” MMC |
| **VIII.** | **İşin qısa təsviri :**<br>***LOT 1 yanğın təhlükəsizliyi sisteminin layihələndirilməsinə dair***<br>*“STP” MMC və törəmə müəssisələrinin istehsal və qeyri-istehsal sahələrinin, habelə inzibati binalarının mövcud yanğın təhlükəsizliyi sisteminin təhlili, partlayış-yanğın təhlükə kateqoriyasının və sinfinin, konstruktiv və funksional yanğın təhlükə səviyyəsinin, binaların yanğına davamlılığının müəyyən edilməsi, mövcud qanunvericiliyin və normativ hüquqi aktların tələblərinə uyğun olaraq yanğın təhlükəsizliyi sisteminin qurulmasını təmin edəcək işçi layihənin, texniki sənədlərin, təlimat və prosedurların hazırlanması.*<br>***LOT 2 mühəndis təhlükəsizlik sisteminin layihələndirilməsinə dair***<br>*STP” MMC və törəmə müəssisələrinin istehsal və qeyri-istehsal sahələrinin, habelə inzibati binalarının mövcud mühəndis təhlükəsizlik sisteminin təhlili, konstruktiv və funksional xüsusiyyətlərinə uyğun olaraq, mövcud qanunvericiliyin və normativ hüquqi aktların tələblərinə uyğun olaraq mühəndis təhlükəsizlik sisteminin qurulmasını təmin edəcək işçi layihənin, texniki sənədlərin, təlimat və prosedurların hazırlanması.* |

***Tender Komitəsi***

**(Təchizatçının rəsmi blankında)**

*İXTİSAS UYĞUNLUĞUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ PROSEDURUNDA İŞTİRAK ETMƏK ÜÇÜN MÜRACİƏT*

___________ şəhər (rayon)        “__” _______ 20__ - c_ il

___________№

“Sumqayıt Texnologiyalar Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin satınalma qrupuna

Bununla, __________ *(təchizatçının adı)* “Sumqayıt Texnologiyalar Parkı” MMC (STP) tərəfindən yanğın təhlükəsizliyi sisteminin və mühəndis təhlükəsizlik sisteminin (*və yaxud ikisindən biri)* layihələndirilməsi ilə bağlı “__” _______ 202_-c_ il tarixində keçiriləcək ixtisas uyğunluğunun müəyyənləşdirilməsi prosedurunda iştirak etməyə niyyətimizi təsdiq edirik.

______________ (*təchizatçının adı*) şirkətinə münasibətdə hər hansı ləğv etmə və ya müflislik prosedurunun aparılmadığını, fəaliyyətinin dayandırılmadığını və STP tərəfindən elan edilmiş ixtisas uyğunluğunun müəyyənləşdirilməsi prosedurunda (satınalma müsabiqəsində) iştirakını qeyri-mümkün edəcək hər hansı bir halın mövcud olmadığını təsdiq edirik.

Təminat veririk ki, ____________ *(təchizatçının adı)* STP-dən hüquqi, maliyyə və ya təşkilati asılılığı olan şəxs deyildir.

Sualları cavablandırmaq üçün əlaqə:

- Əlaqələndirici şəxs: ____________________________
- Əlaqələndirici şəxsin vəzifəsi: ____________________
- Telefon nömrəsi: ______________________________
- Faks nömrəsi: ________________________________
- E-mail: ______________________________________

_________________________________        ________________________
*(səlahiyyətli şəxsin A.A.S)*        *(səlahiyyətli şəxsin imzası)*

_________________________________
*(səlahiyyətli şəxsin vəzifəsi)*

M.Y.